**Yeni Azərbaycan.**-2022.-8 dekabr.-№225.-S.7.

**Tarixin ibrət səhifələri**

# Soydaşlarımızın Qərbi Azərbaycandan deportasiyası...

**Günel Abbasova**

1989-cu il dekabrın 8-də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları silahlı hücumlarla müşayiət olunmağa başladı. Bu tarixlərdə erməni silahlı dəstələrinin Azərbaycanın sərhəd bölgələrinə intensiv basqınları baş verdi. Eyni zamanda azərbaycanlıların Ermənistandan deportasiyası tamamilə başa çatdırıldı, Dağlıq Qarabağdakı azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirilməyə başlanıldı. Dekabrın ikinci yarısında isə erməni silahlı dəstələrinin təxribatçı hücumları keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənara çıxdı.

## Deportasiya necə başladı?

Təkcə XX əsrdə ermənilər havadarlarının köməyi ilə indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı 1905-1906-cı illərdə və 1918-1920-ci illərdə etnik təmizləmə, 1930-cu illərdə kütləvi repressiyalar, 1948-1953-cü illərdə deportasiya həyata keçirib və nəhayət, 1988-1989-cu illərdə etnik təmizləməni başa çatdırmağa müvəffəq olublar. Tarixçilərin və tədqiqatçıların fikrinə görə, azərbaycanlıların indiki Ermənistandan etnik təmizlənməsi və deportasiyalarının əsas səbəbi regionun və ölkənin milli tərkibinin dəyişdirilməsi idi. Rəhbərliyində kimlərin olmasından asılı olmayaraq Sovet Ermənistanının Azərbaycanın Qarabağ və Naxçıvan ərazilərinə iddiası və bu iddiaların fonunda Ermənistandan azərbaycanlıların sıxışdırılıb çıxarılması hər zaman gündəlikdə olub.

## Etnik təmizləmə dövrü...

1988-1989-cu illərdə Qərbi Azərbaycanda azərbaycanlı işçilər iş yerlərinə, uşaqlar isə məktəbə buraxılmır, dükan-bazarda azərbaycanlılara ərzaq satılmır, azərbaycanlıların işığı, telefonu, suyu, qazı kəsilir, onların həyat şəraiti dözülməz vəziyyətə gətirilirdi. Bu, əsl mənəvi, psixoloji terror idi ki, tez-tez fiziki terrorla da əvəz olunurdu. Çox vaxt ermənilər azərbaycanlı evlərinə əvvəlcə cüzi qiymət qoyur, sonra hədə-qorxu gəlir, bir şey çıxmayanda ev-eşiyini dağıdır, od vurub yandırırdılar. Beləcə, rayonların azərbaycanlı kənd və məhəlləri ev-ev boşaldılır, erməniləşdirilirdi. Xüsusilə ermənilərin qat-qat çoxluq təşkil etdiyi kəndlərdə azərbaycanlıların vəziyyəti dözülməz idi. Adamlar səhərə qədər bel, yaba, balta və s. ilə silahlanır, tonqal yandırıb küçələrdə keşik çəkirdilər. Lakin noyabrın sonlarında ermənilər bütün Ermənistan üzrə azərbaycanlı kəndlərinin üzərinə qəti hücuma keçdilər. Bir həftənin içərisində bütün azərbaycanlı kəndləri boşaldıldı, mal-mülkləri əllərindən alındı, ələ keçənlər qətlə yetirildilər.

Azərbaycanlılar ayaqyalın, başıaçıq, qışın şaxtasında, qarında dağlara, meşələrə üz tutdular. Ölən öldü, donan dondu, ürəyi partlayanlar, ağlını itirənlər oldu... Bu, heç bir insanlıq qanununa sığmayan bir müsibət idi. Bu, tarix boyu qul olaraq yaşamış ermənilərin insanlıqdan intiqam alması idi.

Məhz Moskvanın ermənilərə arxa durması nəticəsində 1988-1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məskənləri boşaldıldı. Bundan başqa daha 6 şəhərdə digər millətlərlə yanaşı, azərbaycanlılar da yaşayıblar. Bu yaşayış məntəqələrində isə soydaşlarımızın sayı 49 min 928 ailədə 250 min nəfər olub. Bu yaşayış məntəqələrinin adı və bu məntəqələrin demoqrafik göstəriciləri indiyə kimi heç bir mənbədə tam şəkildə verilməyib.

## Deportasiya soyqırımı mərhələsində...

1988-1989-cu illər soyqırımı zamanı Qərbi Azərbaycanda mövcud məlumatlara görə, 226 soydaşımız ermənilər tərəfindən öldürülüb, (güllələnib, qəsdən avtomobil qəzasına salınıb, dağ yollarında donub və s.) 400 nəfərdən çox adam bədən xəsarəti alıb. Bu da həmin illərdə ermənilər tərəfindən öldürülmüş və yaralanmış soydaşlarımızın tam siyahısı deyil. Əsas qaçqınlıq dövrü 1988-ci ilin noyabr-dekabr aylarına təsadüf etdiyindən soydaşlarımızın kolxozlarda olan illik əmək haqları da ermənilərə qalmış, bir çoxları dövlət banklarında olan əmanətlərini götürə bilməmiş, məcbur olub öz geniş bağ-bağçalarını, xüsusi evlərini Azərbaycanda yaşayan ermənilərin 2-3 otaqlı mənzilləri ilə dəyişməli olublar.

Əsasən, 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistanın azərbaycanlılar yaşayan kəndlərinin əhalisini sıxışdırması, kəndlərə ərzaq göndərilməməsi, elektrik xətlərinin kəsilməsi və silahlı basqınlar edilməsi nəticəsində Ermənistanı tərk edən ailələrə yollarda divan tutulmuş, əmlakları qarət edilmiş, özləri isə

qətlə yetirilmişlər. Soyqırımı Ermənistanda milli zəmində baş verən cinayətlərin əksəriyyəti, əsasən, azərbaycanlı əhalinin öz yaşayış məntəqələrini tərk etməyə məcbur olduqları vaxt baş vermişdi.

1988-ci ilə qədər Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi respublika ərazisinin (29, 8 min kv.km.) 25 faizini, yaxud təqribən 7,5 min kv. km təşkil edirdi. Ermənistan rəhbərliyi azərbaycanlıların etnik təmizlənməsi aksiyasını başa çatdırdıqdan sonra, onların yaşadıqları kəndlərin adlarını dəyişdirməyə başlayıb. İndiyədək Ermənistanda 702 azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilərək erməniləşdirilib.

1989-cu ilin 8 dekabrından azərbaycanlıların Qərbi Azərbaycandan tam deportasiya olunduğu göstərilsə də, qədim yurdunu sonuncu tərk edənlər nüvədililər olub. Ermənistanın Meğri rayonunun Zəngilan rayonu ilə həmsərhəd olan Nüvədi kəndi ən axırda - 1991-ci il avqustun 8-də boşaldılıb. Zəngəzurun Nüvədi kəndi Azərbaycan üçün bu gün də olduqca strateji məsələdir. İllər öncə ümummilli lider Heydər Əliyev də çıxışlarının birində bu məsələyə xüsusi toxunmuş, Nüvədi kəndinin əhalisinin 1991-ci ilə qədər kəndi tərk etmədiklərini bildirmiş, onları “qəhrəman camaat” adlandırmışdı.